# 15 iyun—Milli Qurtuluş Günüdür

***Azərbaycan xalqı 1991-ci ilin oktyabrında yenidən öz müstəqilliyini əldə etdikdən sonra bu müstəqilliyin qorunub saxlanması və əbədiyyətə qovuşdurulması lazım idi. Həmin dövrdən 1993-cü ilin iyun ayınadək ölkədə özbaşınalıq, anarxiya və xaos baş alıb gedirdi. Ölkə müstəqilliyini itirmək təhlükəsi qarşısında idi. Müxtəlif partiyalar arasında olan çəkişmələr, iqtidarın təcrübəsizliyi yaranmış vəziyyətin qarşısını ala bilmirdi. Belə bir vaxtda xalqın təkidli tələbi ilə Naxçıvanda yaşayan Heydər Əliyev Bakıya qayıtdı və iyunun 15-də siyasi hakimiyyəti qəbul etdi. Bununla da ölkə müstəqilliyini itirmək təhlükəsindən qurtuldu.***

***İndi hər il Azərbaycan xalqı 15 iyun gününü Milli Qurtuluş Günü kimi qeyd edir. Aşağıda rayonun idarə və müəssisələrində, ictimai təşkilatlarında Qurtuluş Günü ilə əlaqədar keçirilən tədbirlərdən xəbərlər dərc edirik.***

## 10 saylı Ərazi Vergilər İdarəsində






10 saylı Ərazi Vergilər İdarəsində "15 İyun-Milli Qurtuluş Günü" keçirilmişdir.

Tədbiri 10 saylı Ərazi Vergilər İdarəsi rəisinin müavini Elburus Abdullayev açmışdır. Giriş nitqində o, Milli Qurtuluş Gününün Azərbaycan xalqının taleyində böyük əhəmiyyətə malik olduğunu qeyd etmiş, həmin gün dövlətçiliyimizin gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsasının qoyulduğunu vurğulamışdır.

Tədbirdə 10 saylı Ərazi Vergilər İdarəsinin şöbə rəisi İntiqam Hidayətzadə Müasir Azərbaycan dövlətçiliyi tarixinin başlanğıcı sayılan "15 iyun - Milli Qurtuluş Gününü doğuran tarixi zəruriyyət" mövzusunda məruzə etmişdir.

## Rayon təhsil şöbəsində

Rayonun təhsil işçiləri Azərbaycan Respublikasının Milli Qurtuluş Gününü qeyd etməzdən əvvəl ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsini ziyarət etmiş, önünə tər gül dəstələri düzmüşlər.

Təhsil işçiləri sonra söbədə geniş tədbir keçirmişlər. Tədbiri şöbənin müdiri Oqtay Hacıyev açmışdır. Bunud kənd tam orta məktəbinin müəllimi Ülfət Əzizov, şəhər 4 saylı tam orta məktəbinin müəllimi Ülkər İbrahimova və Məmmədağalı kənd tam orta məktəbinin müəllimi Elşad Abdurahmanov Heydər Əliyevin ikinci dəfə ölkə rəhbərliyinə qayıdışından sonra siyasi fəaliyyəti barədə geniş məruzələr etmişlər.

Təhsil işçiləri sonra Heydər Əliyev muzeyində dahi şəxsiyyətin həyat və fəaliyyətini əks etdirən ekspozisiya salonu ilə tanış olmuş və vidio-lentə tamaşa etmişlər.

**«Qəbələ».**

## Rayon mərkəzi xəstəxanasında

Milli Qurtuluş Günü ilə əlaqədar rayon mərkəzi xəstəxanasında da tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan xəstəxananın baş həkimi Sabir Bayramov Heydər Əliyev



Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkədə yaranmış spesifik xüsusiyyətlərin aradan qaldırılması, anarxiyadan, parçalanmaq təhlükəsindən qurtulması və müstəqil dövlətçiliyimizin xilaskarlıq missiyası ilə bağlı gördüyü tədbirlər barədə geniş məruzə etmişdir.

S. Bayramov məruzəsinin sonunda cənab Prezident İlham Əliyevin Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kursu uğurla davam etdirməsi, hazırda bu kursun müsbət nəticələri barədə də ətraflı danışmışdır.

* * *

Qəbələdə 15 iyun-Milli Qurtuluş gününə həsr olunmuş silsilə tədbirlər davam edir. Rayonun idarə, müəssisə və təşkilatlarında mövzuya dair dəyirmi masalar, yığıncaqlar və tematik toplantılar təşkil olunur, ulu öndərin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətləri qeyd edilir. Müalicə diaqnostika mərkəzində, mərkəzləşdirilmiş kitabxana sistemində, peşə məktəbində, turzm və otelçilik üzrə peşə tədris mərkəzində, mədəni-maarif ocaqlarında tədbirlər daha kütləvi keçirilmişdir. Bütün əmək kollektivlərində dövlətçiliyimizin inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə olunması sahəsində Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti qeyd olunur.

# Qurtuluş Günü— əsrə bərabər 22 il

Ötən əsrin 90-cı illərinin əvvəllərini yaxşı xatırlayıram. Gecə yarısından səhərə qədər çörək növbəsində durduğumuzdan işlədiyim təhsil şöbəsində iş gününün sonunu hamımız mürgüləməklə başa vururduq. Hər gün bir-birindən qorxulu xəbərləri eşidirdik...

—Bakıda şəhərin mərkəzində iki nəfəri güllələdilər. Bu gecə də filankəsi girov götürdülər. Gördünüz, İskəndər Həmidov Televiziya studiyasına necə hücum etdi? İsmayıllıda Topçu yolunda avtomobillərə hücum edib camaatı soyurlar. Hadisələrin miqyası daha da genişlənirdi: -Bum kəndində toyda qumbara atıblar. Kürd kəndində toyda avtomat gülləleri dolu kimi yağıb və nəhayət, gündüzün günortası Qəbələ şəhərinin düz mərkəzində avtomat səsləri eşidildi. Xəbər tez yayıldı. Sadə peşəsi ilə məşğul olan bir gənc yoldan keçən birisinin avtomatdan açdığı çoxsaylı güllələrdən birinə tuş gəlmiş, həyatını itirmişdi. Günahı nə idi? Həmin anda küçədə olmaq. Bir sözlə, Azərbaycan Səməd Vurğunun "26-lar" poemasında təsvir etdiyi XX əsrin əvvəllərindəki vəziyyətə gəlmişdi:

***Nə olmuş, nə imiş insanın suçu,***
***Yoldan təsadüfən keçən bir qoçu,***
***Sınamaq istəmiş öz naqanını,***
***Bədbəxt bir insanın tökmüş qanını.***
***Soyuq divarlarda güllə nişanı,***
***Didir, parçalayır insan insanı.***

*(Ardı 4-cü səhifədə).*

# Avropa Oyunlarında "Qəbələ" İdman Klubu 17 idmançı ilə çıxış edəcəkdir

İyunun 12-dən 28-dək Bakıda keçirilən I Avropa Oyunlarında Avropanın 50 ölkəsini təmsil edən 6000-dən artıq idmançı 20 növdə 253 dəst medal uğrunda mübarizəyə başlamışdır.

Ölkəmizdə ilk dəfə təşkil olunan bu mötəbər idman yarışında yığmamızın heyətində "Qəbələ" İdman Klubunun təmsilçiləri də çıxış edəcəklər. Klubun 17 idmançısı Avropa Oyunlarının mükafatları uğrunda mübarizə aparacaqdır. Atletlərimizin 12 nəfəri döyüş növlərində qüvvələrini sınayacaqdır.

İyunun 16-dan 19-dək Kristal Zalda keçiriləcək taekvondo yarışlarında 58 kiloqram çəki dərəcəsində "Qəbələ"ni Məhəmməd Məhəmmədov təmsil edəcəkdir.

İyunun 25-dən 28-dək Heydər Əliyev adına İdman Arenasında baş tutacaq cüdo yarışlarında isə "Qəbələ"nin 3 idmançısı tatami üzərinə çıxacaqdır. Kifayət Qasımova 57 kiloqram və Ayşə Qurbanlı 48 kiloqram çəki dərəcəsində qadınların, Uşangi Kokauri isə +100 kiloqram çəki dərəcəsində kişilərin yarışında çıxış edəcəkdir.

İyunun 22-də Heydər Əliyev adına İdman Arenasında keçiriləcək sambo yarışlarında "Qəbələ"nin 5 üzvü medallar uğrunda mübarizə aparacaqdır. Qadınların mübarizəsində Şəhanə Hüseynova 60 kiloqram, Fəridə Qurbanova 64 kiloqram və Nərmin Əlizadə 68 kiloqram çəki dərəcələrində, kişilərin yarışında Amil Qasımov 74 kiloqram və Vasif Səfərbəyov +100 kiloqram çəki dərəcəsində çıxış edəcəklər.

İyunun 13-dən 14-dək Kristal Zalda "Qəbələ"nin iki karateçisi tatami üzərinə çıxacaqdır. Niyazi Əliyev 67 kiloqram, Rafael Ağayev 75 kiloqram çəki dərəcələrində qüvvələrini sınayacaqlar.

Klubun digər 5 idmançısı atıcılıq yarışlarında cıxış edəcəkdir. İyunun 16-dan 24-dək Bakı Atıcılıq Mərkəzində Emin Cəfərov, Paşa Əhədpur və Nurlana Cəfərova dairəvi stenddə, Elvin İsmayılovla Alina Parikxanova səngər stendində medallar uğrunda mübarizə aparacaqlar.

**«Qəbələ».**